**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA DÖVLƏT İDARƏÇİLİK AKADEMİYASI**

*Əlyazması hüququnda*

**KAMİL RZAQULU OĞLU SEYİDOV**

# DEMOKRATİK SİYASİ REJİM VƏ VƏTƏNDAŞ CƏMİYYƏTİ

İxtisas: 5904.01 – «Siyasi institutlar və sistemlər»

**Siyasi elmlər üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın**

## AVTOREFERATI

**BAKI – 2016**

İş Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının «Politologiya və siyasi idarəetmə» kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbərlər:** fəlsəfə üzrə elmlər doktoru, professor
**Ə.M.Tağıyev**
fəlsəfə üzrə fəlsəfə doktoru, dosent
**M.Ə.Əfəndiyev**

**Rəsmi opponentlər:** tarix elmləri doktoru, professor
**M.N.Quliyev**
siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent
**A.B.Mirzəzadə**

**Aparıcı təşkilat:** Bakı Slavyan Universitetinin
"Azərbaycan tarixi və ictimai elmlər" kafedrası

Müdafiə "29_"__04____2016-cı il tarixində saat _____da Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası nəzdindəki FD 02.101 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

Ünvan: AZ 1001. Bakı şəhəri, M.Lermontov küçəsi, 74.

Dissertasiya ilə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Elmi kitabxanasında tanış olmaq olar.

Avtoreferat "____" _________2016-cı il tarixində göndərilmişdir.

**FD 02.101 Dissertasiya Şurasının**
**elmi katibi, fəlsəfə üzrə fəlsəfə**
**doktoru, dosent:** **S.İ.Məmmədova**

# İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Tədqiqat mövzusunun aktuallığı.** Hazırda vətəndaş cəmiyyətinin öyrənilməsi siyasi elmin daha zəruri və eyni zamanda mürəkkəb problemlərindən biridir. Demokratik siyasi rejimdə vətəndaş cəmiyyətinin mahiyyətinin, inkişaf meylinin və qanunauyğunluğunun, eləcə də perspektivinin elmi təhlili indi daha çox vacibdir. Çünki vətəndaş cəmiyyəti elə bir universal sosial praktikadır ki, onun vasitəsilə vətəndaşlar və sosial qruplar öz hüquq və azadlıqlarını reallaşdırır və dövlətin avtoritarlığa meyilli olmasına qarşı təsirli çıxış etmək üçün effektli imkan əldə edirlər. Demokratik rejimin ən əhəmiyyətli təminatı, şərti və eləcə də nəticəsi vətəndaş cəmiyyətinin və hüquqi dövlətin qurulmasıdır. Bununla bağlı Ümummilli lider Heydər Əliyev demişdir: «Respublikamızda hüquqi dövlət qurulması, demokratik sivilizasiyalı cəmiyyət yaradılması, insan azadlıqlarının təmin olunması… bizim əvvəlcədən qəbul etdiyimiz prinsiplərdir»[1].

Bu baxımdan demokratik siyasi rejimdə dövlətlə vətəndaş cəmiyyətinin qarşılıqlı münasibətinin tənzimlənməsi məsələsinin sistemli, əhatəli öyrənilməsi mühüm əhəmiyyətə malikdir.

Tədqiqat mövzusunun aktuallığını konkret olaraq aşağıdakı müddəalarla ifadə etmək olar:

–Siyasi elm vətəndaş cəmiyyətinin siyasi və ictimai təsisatlarla, bütövlükdə isə dövlətlə, hakimiyyət orqanları və strukturları ilə qarşılıqlı fəaliyyətinin xarakterini və formalarını öyrənir, eləcə də vətəndaş cəmiyyətinin təşəkkülü xüsusiyyətlərini və təkamül istiqamətini tədqiq edir. Məhz bu kontekstdə, politoloji aspektdə vətəndaş cəmiyyətinin bütöv simasını elmi səviyyədə müəyyənləşdirmək olduqca vacibdir.

–Vətəndaş cəmiyyəti probleminin öyrənilməsini şərtləndirən müasir ciddi amillərdən digəri sosial azadlıq məsələsidir. Azadlıq vətəndaş cəmiyyətinin əsasıdır. Sosial azadlıq insanın cəmiyyətdə özünü reallaşdırması və təsdiqi üçün real imkan yaradır.

–Demokratik siyasi rejimdə vətəndaş cəmiyyətinin tədqiqi zərurəti, eləcə də belə bir reallığın məntiqi nəticəsidir ki, cəmiyyətin bu sivil sferası bir-birilə qarşılıqlı əlaqədə olan insanların spesifik

---

[1] Əliyev H.Ə. Müstəqillik yolu. Seçilmiş fikirlər. Bakı: Azərnəşr, 1997, s. 8.

sosial məkanıdır. Vətəndaş cəmiyyətinin tədqiqi və təhlilini demokratik siyasi rejimlə əlaqələndirməyə cəhd də məhz bu sosial reallığın məntiqi nəticəsi kimi dəyərlənir.

–Azərbaycanda yeni, dinamik iqtisadi və demokratik siyasi sistemin formalaşması, qloballaşma dövrünün tələblərinə cavab verən iqtisadi və siyasi xəttin işlənib hazırlanması və həyata keçirilməsi və sivil cəmiyyət quruculuğu istiqamətində uğurlu cəhdlər respublikamızın sabit, davamlı inkişafına, mənəvi dəyərlərin zənginləşməsinə, vətəndaş həmrəyliyinə əlverişli şərait yaratmışdır. Bu reallığı dərindən təhlil edən və qiymətəndirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin qeyd etdiyi kimi "Azərbaycanda vətəndaş həmrəyliyi, sabitlik tam bərqərar olmuşdur. Müstəqil siyasət, qürur, milli və dini tolerantlıq–budur bizim uğurlarımızın əsas şərtləri... İnsanlar azad təsisatlarda ideyalarının qavranılmasına ən təbii surətdə meyillidirlər"[1]

–Transformasiya şəraitində Azərbaycan Respublikasının strateji məqsədlərindən biri vətəndaş hüquqlarının aliliyinə və sarsılmazlığına əsaslanan yeni demokratik siyasi sistem formalaşdırmaqdan, vətəndaş cəmiyyətinin başlıca təsisatlarından olan qeyri-hökumət təşkilatlarının formalaşması və inkişafı üçün əlverişli şərait yaratmaqdan ibarətdir. Əlbəttə, bu mürəkkəb, hamar və ziddiyyətsiz olmayan prosesin mahiyyəti və məzmununun açıqlanması elmi və praktiki zərurətdir.

–Azərbaycanda vətəndaş cəmiyyətinin formalaşması və inkişafı prosesi əlverişli şəraitdə təzahür edir. Cəmiyyətimizdə ictimai həyatın bütün sferaları transformasiyaya məruz qalır, bu qanunauyğun prosesdə köhnə sosial və siyasi təsisatlar yeniləri ilə əvəzlənir. Belə dəyişiklikdən kənarda vətəndaş cəmiyyətinin formalaşması, yeni pozitiv sosial-siyasi dəyişikliklər prosesinin uğurla, səmərəli başa çatması qeyri-mümkündür. Akademik R.Ə.Mehdiyevin göstərdiyi kimi: "Azərbaycanda vətəndaş cəmiyyəti quruculuğuna nail olmaq siyasi hakimiyyətin bütün dairələri üçün sayılan məqsəddir"[2].

---

[1] Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Qəbələdə ATƏT-in üzvü olan ölkələrin səfirlərinin qəbulu zamanı çıxışı. Azərbaycan Dövlət Quruculuğu və Beynəlxalq Münasibətlər İnstitutu, "Dirçəliş XXI əsr", 169-170/2012, səh.28

[2] Mehdiyev R.Ə. "Yeni siyasət: İnkişafa doğru". Bakı, 2008, "Oskar" səh. 437

–Vətəndaş cəmiyyəti demokratik siyasi rejimdə vətəndaş cəmiyyətinin təşəkkülü, formalaşması, inkişafı və səciyyəvi xüsusiyyətlərinin tədqiqatının aktuallığını üzə çıxaran spesifik məqam ondan ibarətdir ki, vətəndaş cəmiyyəti fərdi mənafelərin və fərdiyyətçiliyin azad oyun sferası kimi mənalanır.

–Vətəndaş cəmiyyəti sosial həyatın təkrar istehsalına istiqamətlənir. Sosial həyatın izahını məhz cəmiyyətin öz təbiətində axtarmaq lazımdır. Vətəndaş cəmiyyətinin tədqiqini və təhlilini demokratik siyasi rejimlə əlaqələndirməyə cəhd də məhz bu sosial reallığın məntiqi nəticəsi kimi dəyərlənir. Demokratik siyasi rejimdə vətəndaş cəmiyyətinin tədqiqi zərurəti, eləcə də belə bir reallığın məntiqi nəticəsidir ki, cəmiyyətin bu sivil sahəsi bir-birilə qarşılıqlı əlaqədə olan insanların spesifik sosial məkanıdır.

Vətəndaş cəmiyyəti dövlətin məsuliyyətini demokratik məcra-ya istiqamətləndirməklə, onun sabit strukturları üçün hüquqi əsasda şaquli əlaqələri şərtləndirir . Vətəndaş cəmiyyətində vətəndaşların öz hüquqlarını birbaşa seçkili orqanlara tapşırmaq prinsipi üstünlük təşkil edir.

Vətəndaş cəmiyyəti şəxsiyyətlərarası bütün münasibətlərin məcmuu olmaqla, dövlətdən kənarda və onun müdaxiləsi olmadan inkişaf edir, gündəlik fərdi və kollektiv tələbatlarını reallaşdıran insanların özünütəşkil forması kimi səciyyələnir. Yalnız belə səciyyəli məqamlara və bu qəbildən olan digər vacib məsələlərə aydınlıq gətirdikdə vətəndaş cəmiyyətinin formalaşması və fəaliyyətindəki başlıca meylləri, ümumi və spesifik cəhətləri müəyyənləşdirmək mümkün ola bilər. Eləcə də məhz bu aspektdə tədqiq edilən problemlə əlaqəli ən əhəmiyyətli konsepsiyaları üzə çıxarıb dəyərləndirmək mümkündür. Bununla bağlı öyrənilən problemin aktuallığını şərtləndirən cəhətlərdən biri də ondan ibarətdir ki, demokratik siyasi rejim və vətəndaş cəmiyyəti probleminə aid bütün təsəvvürlərin inkişafı prosesi nəticə etibarilə onların qarşılıqlı əlaqəsinin ümumi təbiətini yeni mövqedən təhlil etməyi elmi zərurətə çevirir. Çünki bu, nəzəri və praktiki cəhətdən müasir siyasi elmin tələblərinə uyğun olan ciddi araşdırmalar üçün səmərəli zəmindir.

**Problemin işlənmə dərəcəsi.** Elmi ədəbiyyatla tanışlıq göstərir ki, demokratik siyasi rejim və vətəndaş cəmiyyəti problemi müxtəlif aspektlərdən tətqiq edilsədə, bu problemin kompleks öyrənilməsinə kifayət qədər tədqiqat işləri həsr edilməmişdir. Lakin ümumi elmi planda siyasi rejim, demokratiya, siyasi demokratiya, vətəndaş cəmiyyəti və digər bu kimi məsələlər kifayət qədər öyrənilmişdir, problemin bu və ya digər nəzəri məsələlərinə də müxtəlif səviyyələrdə toxunulmuşdur.

Qərb tədqiqatçılarının əsərlərində siyasi rejimlərin müqayisəli təhlilinə, eləcə də demokratik siyasi rejimin mahiyyətinin açıqlanmasına cəhd edilmişdir. Məsələn, A.Leypxart çox mürəkkəb tərkibli (çoxmillətli) cəmiyyətlərdə demokratiya məsələsinə əhatəli diqqət yetirir, onun açıqlamaları sistemli müqayisəli tədqiqat kimi səciyyələnir, S.Hantinqton demokratiyanın üç dalğasının təşəkkülü qanunauyğunluğunu və inkişaf dinamikasını dərin və əhatəli araşdırmış, A.de Tokvil Amerika demokratiyasının təşəkkül tarixini, formalaşmasını, dəyərlərini və spesifik xüsusiyyətlərini tədqiq etmiş, T.Parsons müasir cəmiyyətləri sistemli mövqedən, onları mürəkkəb və bütövlük kəsb edən sistemlər kimi təhlil etmiş, eləcə də formalaşdırdığı sosioetal cəmiyyət konsepsiyasında vətəndaş cəmiyyəti məsələsini özünəməxsus orijinal səviyyədə vurğulayır, L.Sanesteban dövlətlə cəmiyyətin (eləcə də vətəndaş cəmiyyətinin) qarşılıqlı fəaliyyəti xüsusiyyətlərini açıqlayır, A.Seliqman isə vətəndaş cəmiyyəti ideyasına və onun bəzi aspektlərinin tədqiqinə diqqət yetirmişdir[1].

Tədqiq edilən problemin ayrı-ayrı tərəfləri Rusiya alimləri tərəfindən də araşdırılmışdır. V.K.Mokşin XX əsrin ikinci yarısında Şərqi Avropa ölkələrində siyasi rejimlərin transformasiyası prosesinin təhlilinə və mübahisəli təbiətini açıqlamağa cəhd edir, L.M.Romanenko vətəndaş cəmiyyəti münaqişələrinin həllinin sosial texnologiyasına, T.V.Polunina vətəndaş cəmiyyətinin təşəkkülü və

---

[1] Лейпхарт А. Демократии многосоставных обществах. «Сравнительное исследование». М., 1996, №5, 107-119 с.; Хантингтон С. Третья волна демократии / Избранные тексты. М.: «ЮНИТИ», 2006, 79-83 с.; Токвиль А. де. Демократия в Америке. М., «Логос», 2001, 367 с.; Парсонс Т. Система современных обществ. М., Аспект Пресс, 1998, 270 с.; Санэстебан Л. Государство и общество. Диалог. М., 1993, №5-6; Вятр Е. Типология политических режимов. Таллин, 1991, т.1, 579 с.; Seliqman Adam. «Vətəndaş cəmiyyəti ideyası». Bakı: «Nurlan» MPB, 205, 240 s.

xüsusiyyətlərini, R.T.Muxayev siyasi rejimlərin başlıca komponentlərini və tiplərini, eləcə də vətəndaş cəmiyyətinin klassik və müasir konsepsiyalarını, Ç.Endreyn siyasi rejimlərin müqayisəli fəaliyyətinin bəzi məqamlarına, A.İ.Priqojin sosial təşkilatlar məsələsinə aydınlıq gətirir, Y.M.Reznik vətəndaş cəmiyyətini sosioloji təhlilin obyekti kimi nəzərdən keçirir, A.P.Kopetka fəlsəfi inkişaf aspektində vətəndaş cəmiyyətinin formalaşmasına diqqət yetirir, V.A.Vityuk vətəndaş cəmiyyəti ideyasının təşəkkülü və tarixi inkişafını araşdırır, A.Apato vətəndaş cəmiyyəti konsepsiyasının təhlilinə cəhd edir, V.Xoros isə vətəndaş cəmiyyətinə ümumi yanaşmaların mahiyyətini üzə çıxarır[1].

Siyasi rejim, vətəndaş cəmiyyəti, hüquqi dövlət məsələlərinin müəyyən aspektləri Azərbaycan alimlərinin də diqqətindən yayınmayıb. Akademik R.Ə.Mehdiyev Azərbaycanda vətəndaş cəmiyyəti və hüquqi dövlət quruculuğuna konseptual mövqedən yanaşmış, R.M.Həsənov transformasiya şəraitində vətəndaş cəmiyyətinin formalaşması və inkişaf xüsusiyyətlərini, fəaliyyət istiqamətlərini, Ş.X.Bağırov Azərbaycanda vətəndaş cəmiyyəti quruculuğunun siyasi aspektlərini, İ.R.Məmmədzadə vətəndaş cəmiyyəti və milli ideologiyanın qarşılıqlı əlaqəsini, M.Ə.Əfəndiyev hüquqi dövlətlə vətəndaş cəmiyyətinin qarşılıqlı fəaliyyətini, eləcə də vətəndaş cəmiyyətinin təşəkkülü və strukturunu, Ə.M.Tağıyev insan və siyasətin müna-

---

[1] Мокшин В.К. Трансформация политических режимов восточноевропейских стран во второй половине XX века. Архан, 1997, 574 с.; Мухаев Р.Т. Теория политики. М., ЮНИТИ, 2005, 623 с.; Эндрейн Ч.Р. Сравнительный анализ политических систем. М., Академически. Проект, 2000, 432 с.; Романенко Л.М. Социальные технологии разрешения конфликтов гражданского общества: экзистенциальные альтернативы современной России на пороге третьего тысячелетия. М., ИСРАН, 1998, 369 с.; Полинина Т.В. Гражданское общество. М., «Акалис», 1996, 276 с.; Пригожин А.И. Социология организации. М., «Мысль», 1980, 367 с.; Резник Ю.М. Гражданское общество как объект социологиического анализа: Автореф. дисс. канд. философ. наук. М., 1990, 21с.; Копетка А.П. О формировании гражданского общества в философском развитии // «Политические исследования», 1990, №5, 128-131 с.; Витюк В.В. Становление идеи гражданского общества и ее историческая эволюция. М., ЮНИТИ, 1995, 91 с.; Апато А. Концепция гражданского общества: восхождение, упадок и воссоздание – и направление для дальнейших исследований // «Политические исследования», 1995, №3, 48-57 с.; Хорос В. Гражданское общество: общие подходы // «Мировая экономика и международные отношения», 1995, №11, 49-59 с.

sibətini, A.Yusifova isə keçid dövründə siyasi hakimiyyətin demokratikləşməsi problemini tədqiq etmişdir.[1]

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyektini demokratik siyasi rejim şəraitində vətəndaş cəmiyyətinin təşəkkülü, formalaşması və inkişafı, predmetini isə vətəndaş cəmiyyətinin inkişaf dinamikası və xüsusiyyətləri, onun strukturu və funksional aspekti, vətəndaş cəmiyyəti ilə demokratik hüquqi dövlətin qarşılıqlı fəaliyyəti və münasibəti təşkil edir.

**Təqqiqatın məqsəd və vəzifələri.** Dissertasiya işinin başlıca məqsədi demokratik siyasi rejimin sosial-siyasi dəyərlərini və bu kontekstdə vətəndaş cəmiyyətinin təşəkkül xüsusiyyətlərini müəyyənləşdirməkdən, vətəndaş cəmiyyətinin inkişaf dinamikasını, onun strukturunu təşkil edən elementlərin spesifik xüsusiyyətlərini və eləcə də struktur-funksional mahiyyətini, vətəndaş cəmiyyətinin formalaşmasına ciddi təsir göstərən amilləri, xüsusilə bu prosesə demokratik hüquqi dövlətin əhəmiyyətli təsir mexanizmini üzə çıxarmaqdan ibarətdir. Bu məqsədə nail olmaq üçün aşağıdakı məsələlərin araşdırılması başlıca vəzifə kimi qarşıya qoyulmuş və yerinə yetirilmişdir:

- demokratik siyasi rejimin plüralist mahiyyətini təhlil etmək və sosial-siyasi dəyərlərini üzə çıxarmaq;
- vətəndaş cəmiyyətini demokratik siyasi rejimin sivil sferası kimi araşdırmaq;
- vətəndaş cəmiyyəti ideyasına konseptual yanaşmalarda nəzərə çarpan yarımçıq, ziddiyyətli mövqelərə aydınlıq gətirmək və ona orijinal konseptual nöqteyi-nəzərdən münasibət bildirmək;

---

[1] Mehdiyev R.Ə. Vətəndaş cəmiyyətinə yol açan ideyalar. Bakı, «Şərq-Qərb», 2006, 583 s.; Mehdiyev R.Ə. Demokratiya yolunda: irs haqqında düşünərkən. Bakı, «Şərq-Qərb», 2008, 791s; Mehdiyev R.Ə. Zaman haqqında düşünərkən. Bakı, 2009, 268 s.; Гасанов Р. Формирование гражданского общества в условиях трансформации. Баку, «Kitab aləmi» 2003, 271 s.; Bağırov Ş.X. Azərbaycanda vətəndaş cəmiyyəti quruculuğunun siyasi aspektləri: Avtoreferat. Siyasi elmlər namizədi alimlik dərəcəsi almaq üçün. Azərbaycan respublikasının prezidenti yanında Dövlət idarəçilik Akademiyası. Bakı, 2007, 18 s.; Məmmədzadə İ. Qloballaşma və müasirləşmə şəraitində fəlsəfənin aktuallığı haqqında. Bakı, Təknur, 2009, 226 s.; Əfəndiyev M. Siyasi elm. Bakı, Siyasət nəşr, 2010, 859 s.; Əfəndiyev M.Ə. Politologiya, «Elm», 2011, 492 s.; Tağıyev Ə.M. İnsan və siyasət. «MBM» MMC. Bakı, 2005, 188 s.; Юсифова А. Проблемы демократизации политической власти в переходный период». Социально-философский анализ. Баку, 2004, 178 с.

- demokratik rejimdə vətəndaş cəmiyyətinin başlıca təşəkkül xüsusiyyətlərini müəyyənləşdirmək;

- vətəndaş cəmiyyətinin spesifik inkişaf dinamikasını üzə çıxarmaq;

- vətəndaş cəmiyyətinin tədqiqinə struktur-funksional aspektdə diqqət yetirmək.

**Tədqiqatın nəzəri və metodoloji əsasları.** Tədqiqat işinin nəzəri əsasını ilk növbədə Ümummilli lider Heydər Əliyevin və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Respublikamızda demokratik, hüquqi, müstəqil dövlət və vətəndaş cəmiyyətinin qurulması, insan azadlıqlarının təmin olunması, vətəndaş həmrəyliyi haqqında ideyaları, tədqiqat probleminə dair konseptual fikirləri, eləcə də problemlə bağlı Azərbaycanın və xarici olkələrin tanınmış alimlərinin fundamental elmi tədqiqatları təşkil edir. Dissertasiyanın məqsəd və vəzifələrini yerinə yetirmək üçün istifadə edilən mənbələrə obyektivlik və tarixilik prinsipi əsasında yanaşılmışdır. Tədqiqatın metodoloji bazasını problemə sistemli yanaşma əsasında siyasi elmin xüsusi elmi metodu, eləcə də müqayisəli politoloji təhlil, ümummәntiqi metodlardan analiz və sintez, məntiqilik və tarixilik təşkil edir. İstifadə olunan çoxsaylı müasir ədəbiyyatın dərin elmi təhlilinə cəhd edilmişdir.

**Tədqiqatın mənbəşünaslıq bazası.** Dissertasiyanın hazırlanmasında demokratik siyasi rejimə, vətəndaş cəmiyyətinə, onların qarşılıqlı əlaqəsinə, vətəndaş cəmiyyətinin formalaşması, inkişafı və fəaliyyətinə, onun dövlətlə qarşılıqlı fəaliyyətinə aid xarici və yerli nəşrlərdən istifadə edilmişdir. Bu nəşrlərdən aşağıdakılar əsas mənbə rolunu oynamışdır: demokratik siyasi rejim və vətəndaş cəmiyyəti ilə bağlı xarici ölkə tədqiqatçılarının və yerli alimlərin əsərləri və məqalələri, Azərbaycan Respublikasının Konstitusiyası, Ümummilli lider Heydər Əliyevin nitq və çıxışlarının toplandığı çoxsaylı kitablar, müasir dövrdə ictimai təşkilatların, eləcə də, vətəndaş cəmiyyətinin fəaliyyətinin, hüquqi dövlət quruculuğunun daha da təkmilləşdirilməsi ilə bağlı Prezident İlham Əliyevin məqsədyönlü siyasətindən bəhs edən nəşrlər.

**Tədqiqatın elmi yeniliyi.** Tədqiqatın başlıca elmi yeniliyi ondan ibarətdir ki, bu mövzu kompleks şəkildə xüsusi tədqiqat obyekti və predmeti kimi seçim edilməmişdir. Bu baxımdan dissertasiya işində aparılan araşdırmalar bütövlükdə elmi yenilik

kimi qiymətləndirilə bilər. Tədqiqatın elmi yenilikləri aşağıdakı konkret müddəalarda öz əksini tapmışdır:

- Demokratik siyasi rejimin sosial-siyasi və mənəvi-hüquqi dəyərləri və plüralist mahiyyəti müəyyənləşdirilmişdir;
- Vətəndaş cəmiyyəti demokratik siyasi rejimin sivil sferası və demokratik dövlətin mühüm tərəfi kimi araşdırılmışdır;
- Vətəndaş cəmiyyətinin mahiyyəti, məzmunu və ona konseptual yanaşmaların ən dəyərli və çatışmayan məqamları üzə çıxarılmışdır;
- Demokratik siyasi rejimdə vətəndaş cəmiyyətinin təşəkkül xüsusiyyətləri tədqiq edilmişdir;
- Vətəndaş cəmiyyətinin strukturu, funksional dəyərləri və inkişaf istiqamətləri təhlil olunmuşdur;
- Vətəndaş cəmiyyətinin formalaşmasına demokratik hüquqi dövlətin təsir imkanları və mexanizmi müəyyənləşdirilmişdir;
- Vətəndaş cəmiyyətinin inkişafı kontekstində onun dövlətlə qarşılıqlı fəaliyyətinin pozitiv aspektləri vurğulanmışdır.

**Tədqiqat işinin nəzəri və praktiki əhəmiyyəti.** Tədqiqatın nəzəri-praktiki əhəmiyyəti, başlıca məqsədi demokratik dövlətin mühüm tərəfi, demokratik siyasi rejimin sivil sferası kimi səciyyələnən, vətəndaşların və sosial qrupların öz hüquq və azadlıqlarını reallaşdırmağa təsir göstərən və universal sosial praktika kimi mənalanan vətəndaş cəmiyyəti haqqında tam təsəvvür yaratmasından ibarətdir.

Dissertasiyanın əsas müddəaları və nəticələrindən aşağıdakı istiqamətlərdə istifadə edilməsi faydalı olardı:

- mövzu ilə bağlı gələcək tədqiqat işlərinin aparılmasında, elmi-praktiki konfranslar keçirilməsində;
- ali məktəblərin müvafiq fakültələrində beynəlxalq münasibətlər və siyasi elm üzrə xüsusi kursların tədrisində, mühazirələrin oxunmasında və seminarların keçirilməsində, dərsliklər və dərs vəsaitlərinin hazırlanmasında.

**Dissertasiyanın aprobasiyası.** Dissertasiya Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının «Politologiya və siyasi idarəetmə» kafedrasında müzakirə olunmuş və müdafiəyə tövsiyə edilmişdir. Tədqiqatın əsas məzmunu və müddəaları müəllifin Azərbaycanda və xaricdə nəşr olunan elmi jurnallarda dərc etdirdiyi məqalələrində, həmçinin respublika elmi-

praktiki və beynəlxalq elmi konfranslarının materiallarında öz əksini tapmışdır.

**Dissertasiyanın strukturu.** Dissertasiya giriş, yeddi yarımfəsli əhatə edən iki fəsil, nəticə və istifadə edilmiş ədəbiyyatdan ibarətdir.

## İşin əsas məzmunu

**Girişdə** mövzunun aktuallığı əsaslandırılır, tədqiqatın məqsəd və vəzifələri müəyyən edilir, onun elmi yeniliyi, nəzəri-metodoloji və mənbəşünaslıq bazası, həmçinin nəzəri və praktiki əhəmiyyəti göstərilir, problemin öyrənilmə səviyyəsi nəzərdən keçirilir.

**Birinci fəsil «Vətəndaş cəmiyyəti demokratik siyasi rejimin sivil sferası kimi»** adlanır. **Bu fəslin «Demokratik siyasi rejimin sosial-siyasi dəyərləri və plüralist mahiyyəti»** adlı birinci yarımfəslində demokratik rejimin sosial-siyasi dəyərləri və üstünlükləri, onun plüralist mahiyyəti və məzmunu, bu siyasi rejimin səciyyəvi xüsusiyyətləri tədqiq olunur.

«Siyasi rejim» anlayışı dar və geniş mənada başa düşülür. Həmin anlayışın dar mənada başa düşülməsi siyasi rejimin «idarəetmə forması» anlayışı ilə eyniləşdirilməsindən irəli gəlir. «Siyasi rejim» anlayışının geniş mənada başa düşülməsi isə onun «siyasi sistem» kateqoriyası ilə eyniləşdirilməsilə bağlıdır. Siyasi rejimin xarakterini bütövlükdə mahiyyət etibarilə, onun keyfiyyət xarakteristikası müəyyənləşdirir.

Demokratik siyasi rejimdə xalq öz iradəsinin reallaşması mümkünlüyünü bilavasitə nümayəndələri vasitəsilə təmin edir, hakimiyyət isə öz siyasəti ilə bağlı vətəndaşlar qarşısında məsuliyyət daşıyır. Demokratiya sosial alternativlərin üzə çıxarılması və seçimi mexanizmini ifadə edir. Demokratiyanın müəyyən sosial zəmininin mövcudluğu demokratik siyasi rejimin qeyri-demokratik rejimlərdən bir sıra üstünlüklərini, sosial-siyasi dəyərlərini təsdiqləyir. Bütün qeyri-demokratik siyasi sistemlərin ümumi qüsuru ondan ibarətdir ki, xalq onlara nəzarət etmək imkanından məhrumdur.

Demokratik siyasi rejimin sosial-siyasi dəyərlərinə bunları aid etmək olar: xalqın hakimiyyətin mənbəyi kimi çıxış etməsi; siyasi hakimiyyətin legitim xarakteri; hakimiyyətin bölünməsi prinsipi; xalqın siyasi qərarların işlənib hazırlanmasına təsir etmək hüququ; çoxpartiyalı sistemin mövcudluğu; insan haqları və azadlıqlarının

reallaşmasının yüksək dərəcəsi; kütləvi informasiya vasitələrinin müstəqil, azad fəaliyyəti; obyektiv, dəyərli ictimai rəyin nəzərə alınması.

Demokratiyanın təşəkkülü və inkişafına təsir göstərən bütün amillər bu və ya digər formada elitar dairələrin düşüncə tərzində təzahür edir. Demokratik siyasi rejimdə dövlət və vətəndaşların qarşılıqlı münasibətlərinin normaları, qaydaları və prinsiplərinə yüksək səviyyədə riayət edilir, vətəndaş-dövlət münasibətləri sivil, demokratik xarakter daşıyır. Vətəndaşlarla dövlət arasında sivil dialoq kontekstində dəyərli sosial-siyasi məna kəsb edən konsensus qərarlaşır, bu isə formalaşmaqda olan yeni qlobal demokratikləşmənin tərkib hissəsi kimi çıxış edir[1].

Demokratik siyasi rejimi səciyyələndirən ümumi dəyərlərdən biri onun plüralist mahiyyət kəsb etməsidir. Plüralizm demokratiyanın tarixi formalarından biri kimi dəyərləndirilir. Demokratiyanın stimullaşdırdığı plüralizm ictimai hadisələrin çoxcəhətliyini, mənəvi və sosial alternativlərin zənginliyini təmin edir, eləcə də siyasi seçimin diapazonunu, inkişafın optimal yollarının axtarışı imkanlarını genişləndirir. Siyasi plüralizm çoxlu partiyaların və siyasi təsisatların, müxtəlif ideya-siyasi istiqamətlərin, cərəyanların mövcudluğu ilə təzahür edir. Plüralist demokratiya tərəfdarları iddia edirlər ki, plüralizm vasitəsilə siyasi hakimiyyət əsil mənada ümumxalq xarakteri daşıyacaq, dövlət isə yalnız müxtəlif qrupların mənafelərinin razılaşdırılması vasitəsi kimi çıxış edəcək. Plüralizm ideoloqları belə qənaətə gəlirlər ki, plüralist cəmiyyətdə dövlət hər hansı sinfin deyil, bütün siniflərin və təbəqələrin mənafeyini ifadə edir[2].

**Bu fəslin** ikinci yarımfəsli «**Vətəndaş cəmiyyəti: mahiyyəti, məzmunu və ona konseptual yanaşmalar**» adlanır. Vətəndaş cəmiyyəti bir-birinə münasibətdə fərdlərin mütləq azadlıq sferasını təşkil edir. Vətəndaş cəmiyyəti sosiumun xüsusi sferası olmaqla sosial, iqtisadi, ideoloji, mədəni və digər subyektlərin (dövlətə aid olmayan) qarşılıqlı əlaqə və qarşılıqlı fəaliyyətinin çoxsəviyyəli

---

[1] Məcid Əfəndiyev. Siyasi elm. Bakı, 2010, s. 531.

[2] Василенко И.А. Диалог цивилизации: Социокультурные проблемы политического партнерства. М., 1999, с. 4-5.

sistemi kimi səciyyələnir.

Vətəndaş cəmiyyəti şəxsiyyətlərarası bütün münasibətlərin məcmuu olmaqla dövlətdən kənarda və onun müdaxiləsi olmadan inkişaf edir, gündəlik fərdi və kollektiv tələbatlarını reallaşdıran insanların özünütəşkil forması kimi səciyyələnir.

Vətəndaş cəmiyyətinin mahiyyəti və məzmunu barədə mövcud olan müxtəlif mülahizə və mühakimələri ümumiləşdirərək belə qənaətə gəlmək olar: əvvəla, vətəndaş cəmiyyəti məhz demokratik dövlətlərdə formalaşan və inkişaf edən insan birliyidir. O, qeyri-dövlət münasibətlərinin iqtisadi, sosial, mənəvi, dini və digərlərinin məcmuu kimi səciyyələnir, ikincisi, vətəndaş cəmiyyətini təşkil edən birliklər vətəndaşların iqtisadi, ailə, hüquqi, mədəni və digər mənafelərinin geniş dairəsini əks etdirir və bu mənafeləri təmin etmək məqsədilə yaradılır; üçüncüsü, vətəndaş cəmiyyətini şərtləndirən təşkilatların məcmuunun özünəməxsusluğu ondan ibarətdir ki, bu təşkilatlar dövlət vasitəsilə deyil, vətəndaşların özü və müxtəlif müəssisələr tərəfindən yaradılır, dövlətə münasibətdə muxtar xarakterə malikdir, şübhəsiz, fəaliyyətdə olan mövcud qanunlar çərçivəsində; nəhayət, demokratik siyasi reallığın mühüm tərəfi olmaq etibarilə, vətəndaş cəmiyyəti bütövlükdə ictimai rəyin ifadəsi olmaqla, özünün spesifik formada üzə çıxan siyasi hakimiyyətinə xidmət edir.

Hüquqi demokratik dövlətdə vətəndaş cəmiyyəti qanunların mənbəyi kimi çıxış edir və dövlət onu yox, o dövləti müəyyənləşdirir. Belə halda şəxsiyyətin cəmiyyət üzərində üstünlüyü təmin olunur. Vətəndaş cəmiyyətinə konseptual yanaşmalarla bağlı qeyd etmək lazımdır ki, siyasi fikirdə vətəndaş cəmiyyəti anlayışına dair iki başlıca konsepsiya mövcuddur: liberal dokrina və marksist konsepsiya. Vətəndaş cəmiyyəti haqqında liberal konsepsiya T.Hobbsun və C.Lokkun adı ilə bağlıdır. Bu mütəfəkkirlər «vətəndaş cəmiyyəti» anlayışından insan cəmiyyətinin tarixini ifadə etmək, insanın təbii vəziyyətdən sivil həyata keçməsini səciyyələndirmək məqsədilə istifadə etmişlər. Vətəndaş cəmiyyətinə aid liberal görüşlər sistemində G.Hegelin işləyib hazırladığı konsepsiya xüsusi yer tutur. O belə bir ideyadan çıxış edir ki, vətəndaş cəmiyyəti əməyin köməyi ilə gündəlik tələbatını təmin edən fərdlərin məcmuudur.

---

[1] История политических и правовых учений. М., 1997, с. 521-522.

Vətəndaş cəmiyyəti barədə siyasi fikirdə mövcud olan digər klassik nəzəriyyə marksist konsepsiyadır. Bu konsepsiya vətəndaş cəmiyyətinə münasibətdə dövlətin birinciliyi haqqında Hegelin görüşlərinin təkzibi kimi səciyyələnir. K.Marks vətəndaş cəmiyyətini qlobal cəmiyyətin əsası, fərdin həyat fəaliyyətini isə tarixi inkişafın həlledici amili hesab edirdi.

Vətəndaş cəmiyyəti ilə bağlı müasir yaradıcı axtarış T.Parsonsun fəaliyyəti ilə bağlıdır. Onun sosioetal cəmiyyət konsepsiyası yeni yaradıcı məqamları ilə səciyyələnir. Parsons ənənəvi və müasir cəmiyyətin fərdi və kollektiv sintezinin reallaşdırılmasına cəhd etmişdir. O, düzgün olaraq belə qənaətə gəlir ki, sosioetal cəmiyyət kimi, vətəndaş cəmiyyəti də normalara və assosiasiyalara əsaslanır, həm bazara (başqa sözlə, iqtisadiyyata) və eləcə də dövlətə (bürokratiyaya) qarşı dayanır.

**Birinci fəslin «Demokratik siyasi rejimdə vətəndaş cəmiyyətinin təşəkkül xüsusiyyətləri»** adlanan üçüncü yarımfəslində demokratik tipli rejimdə vətəndaş cəmiyyətinin təşəkkülü prosesi, bu prosesin spesifik xüsusiyyətləri təhlil edilir.

Ümummilli lider Heydər Əliyev qətiyyətlə qeyd edirdi ki, «əgər hər hansı bir ölkənin xalqları öz hüquqlarını anlayır və onları qoruya bilirsə, o zaman ən kiçik dövlət belə ən böyük məmləkət qədər güclü olur»[1]. Vətəndaş cəmiyyətinin təşəkkülü və inkişafını təmin edən demokratik siyasi rejim hər şeydən əvvəl, nəinki vətəndaşların, eləcə də idarəetmə orqanlarının qanun qarşısında real bərabərliyini təmin etməlidir.

Vətəndaş cəmiyyətinin təşəkkülünü və inkişafını şərtləndirən nəinki obyektiv və subyektiv xarakterli amillər, eləcə də xüsusi və ümumi səbəblər mövcuddur. Demokratik siyasi rejimdə vətəndaş cəmiyyətinin təşəkkül xüsusiyyətləri bir sıra ümumi səbəblərlə bağlıdır. Birinci ümumi səbəb xüsusi mülkiyyətlə şərtlənir. Yetkin demokratik siyasi rejimdə əhalinin əksəriyyəti xüsusi mülkiyyətçidir. Həmin mülkiyyətçilərin böyük əksəriyyətinin əldə etdiyi gəlir, yaşayış səviyyəsi, ailə həyatı məhz xüsusi mülkiyyət vasitəsilə təmin olunur. Əhalinin xüsusi mülkiyyəti sənaye, ticarət, kənd təsərrüfatı, emal sahələri və digərlərinə aid olan xüsusi müəssisələrdən və eləcə də torpaqdan, icarəyə verilən daşınmaz əmlakdan, gəlir gətirən

[1] Əliyev H.Ə. Deyilən söz yadigardı. Azərbaycan Atatürk Mərkəzi. 2011, s. 10.

qiymətli kağızlardan, faizlə verilən pul vəsaitindən, yazıçılara, bəstəkarlara, ixtiraçılara, elmi işçilərə və başqalarına mənsub olan intellektual mülkiyyətdən ibarətdir.

Belə qənaətə gəlmək olar ki, xüsusi mülkiyyət demokratik siyasi rejimin daha inkişaf etmiş təsisatı olmaq etibarilə, vətəndaş cəmiyyətinin təşəkkülü, onun mükəmməl özünü təşkil edən ictimai struktura çevrilməsinin əsas ümumi səbəblərindən biri kimi səciyyələnir.

Vətəndaş cəmiyyətinin təşəkkülünü şərtləndirən ikinci ümumi səbəb azad bazar iqtisadiyyatıdır. O, birinci ümumi səbəblə sıx əlaqə kəsb etməklə, demokratiyanı şərtləndirən amillərdən biri kimi çıxış edir. Azad bazar iqtisadiyyatı vətəndaş cəmiyyətinin təşəkkül xüsusiyyətlərinə özünəməxsus təsir göstərir. Demokratik cəmiyyət digər azadlıqlarla yanaşı, öz qanunları üzrə inkişaf edən iqtisadiyyata, təsərrüfat sisteminə də malikdir. Sahibkarların müxtəlif birliklərinin təşkili, başqa sözlə vətəndaş cəmiyyətinin təşəkkülü həmin məsələni asanlaşdırmağa istiqamətlənməlidir.

Nəhayət, vətəndaş cəmiyyətinin təşəkkülü və fəaliyyətinin üçüncü ümumi səbəbi demokratik cəmiyyətin öz vətəndaşlarının maraq və tələbatını maksimal səviyyədə təmin etməyə cəhd etməsidir. Bununla yanaşı belə bir cəhəti diqqətdən yayındırmaq olmaz ki, bu və ya digər cəmiyyətin doğurduğu mənafe, maraq və tələbatlar çoxsaylı, müxtəlif və fərqləndiricidir. Buna görə mövcud dövlət praktiki olaraq onların hamısı barədə informasiya əldə etməyə qadir ola bilməz. Belə qənaətə gəlmək olar ki, dövlət vətəndaşların maraq və tələbatları haqqında məlumatlandırılmalıdır. Dövlət isə öz imkanlarından istifadə etməklə vətəndaşların ümumi mənafeyini reallaşdırmalıdır. «Vətəndaşların yüksək rifah halından kənarda, müvafiq siyasi-mədəni zəmindən məhrum olan demokratiya qeyri-mümkündür»[1].

Dissertasiyanın "Vətəndaş cəmiyyətinin inkişaf dinamikası" adlanan ikinci fəsli dörd yarımfəsli əhatə edir. **«Vətəndaş cəmiyyətinin strukturu, funksiyaları və inkişaf istiqamətləri»** adlanan birinci yarımfəsildə vətəndaş cəmiyyətinin struktur-funksional mahiyyəti, inkişaf meylləri və istiqamətləri təhlil edilir.

Vətəndaş cəmiyyəti sosial praktikanı cəmiyyətin müxtəlif

---

[1] Мелвиль А.Ю. Демократические транзиты. М., 1999, с. 41-42.

subyektləri arasında, məsələn, rəqabət aparan ictimai təşkilatlar arasında horizontal (üfüqi) əlaqə vasitəsilə optimallaşdırır. Həmin əlaqə eləcə də vətəndaş cəmiyyəti nümayəndələri və hakimiyyət strukturları (həmkarlar ittifaqları və hökumət arasında) vasitəsilə reallaşır. Vətəndaş cəmiyyəti subyektlərinin iştirak etdikləri kommunikativ münasibətlərin baza tipi «hökmranlıq-tabeçilik» münasibəti deyil, məhz elə əməkdaşlıq münasibətidir ki, bu zaman qarşılıqlı fəaliyyətdə olan tərəflər bir-birinə öz maraqlarına və tələbatına malik olan bərabərhüquqlu partnyor kimi baxırlar. Partnyorlar «düzgün oyun» qaydalarına əməl etmək üçün bir-birilə razılığa gəlirlər, açıq münaqişələrdən uzaqlaşmağa cəhd edirlər, konsensus əsasında və demokratik proseduralar vasitəsilə birgə qarşılıqlı qəbul olunan elə qərar işləyib hazırlayırlar ki, vətəndaş cəmiyyətinin strukturunu təşkil edən təşkilatların və birliklərin iştirakçılarının hamısı yaranan münaqişəli situasiyanı aradan qaldıra bilsinlər.

Vətəndaş cəmiyyətinin strukturunun təşəkkülü, formalaşması və inkişaf istiqaməti bütövlükdə onun məzmunu və funksiyaları barədə təsəvvürü daha da dolğunlaşdırır. Vətəndaş cəmiyyəti ictimai həyatın bütün sferalarında öz təşkilatları və birlikləri ilə təmsil olunur. Onun strukturunu məhz bu təşkilatlar və birliklər səciyyələndirir.

Vətəndaş cəmiyyətinin sosial-siyasi sferasının təşkilatları və birlikləri onun bütün subyektləri kimi, ictimai təşəbbüslə yaranır və fəaliyyət göstərirlər. Onlar öz sosial mənafe və maraqlarını mövcud təşkilatlar, sahibkarlar və muzdlu fəhlələr vasitəsilə reallaşdırmağa çalışırlar.

Vətəndaş cəmiyyəti bir sıra vacib funksiyalar yerinə yetirir və bu funksiyalar vəətəndaşların fərdi mənafe, maraq və tələbatının təmin olunmasına istiqamətlənir. Məsələn, vətəndaş cəmiyyətinin inteqrativ funksiyası sosial sahədə vətəndaşların və sosial qrupların siyasi təsir etmə və manipulyasiya obyektindən müstəqil sosial subyektə çevrilməsini həyata keçirir. Vətəndaş cəmiyyətinin strukturunun təkrar istehsalı və sosial gərginliyin aradan qaldırılması funksiyası isə mövcud sosial qaydanın müdafiəsinə, status-kvonun saxlanmasına istiqamətlənir. Yüksək demokratikləşmə səviyyəsində öz mənafelərini nəinki ayrıca sosial qruplar və eləcə də mövcud cəmiyyətin qruplarının əksəriyyəti həyata keçirə bilər. Demokratiya-

nın vətəndaşlarda legitimləşməsi o qədər dərin və genişdir ki, demokratiyanın boşa çıxması ağlabatan deyildir[1].

«**Demokratik hüquqi dövlət vətəndaş cəmiyyətinin formalaşmasının vacib şərtidir**» adlanan ikinci yarımfəsildə vətəndaş cəmiyyətinin formalaşması və inkişafı üçün demokratik hüquqi dövlətin yaratdığı imkanlar və üstünlüklər araşdırılır. Hüquqi dövlətin mahiyyətini başa düşmək üçün «qanun» və «hüquq» anlayışlarının nisbətinin düzgün dərk edilməsi prinsipial əhəmiyyət kəsb edir. Qanun qeyri-hüquqi və hətta hüquqa zidd xarakter kəsb edə bilər. Bu baxımdan müvafiq qanunvericiliyə əsaslanan hər bir dövlət hüquqi dövlət deyildir. Hüquqi dövlətin başlıca prinsiplərinə aiddir: Qanunun aliliyi; Hüququn ümumiliyi; Şəxsiyyətin hüquq və azadlığının sarsılmazlığı.

Qanunun aliliyi belə bir cəhəti ifadə edir ki, hüquqi dövlətin qanunları ölkə Konstitusiyasına əsaslanır və digər normativ aktlarla müqayisədə ən yüksək gücə malikdir.

Hüququn ümumiliyi onunla səciyyələnir ki, qanunların fəaliyyəti bütün cəmiyyətdə və onun strukturlarında, hər bir fərddən başlamış hakimiyyətin yüksək nümayəndələrinə qədər – hamının arasında yayılır. Onların hamısı qanun qarşısında bərabərdir, heç bir fiziki və ya hüquqi şəxs digərləri qarşısında üstünlüyə malik deyildir.

Şəxsiyyətin hüquq və azadlığının sarsılmazlığı prinsipi isə dövlət tərəfindən şəxsiyyətin hüquq və azadlıqlarının təsdiqi, gözlənilməsi və müdafiəsindən ibarətdir.

Hüquqi dövlət özünün təşəkkülü, formalaşması və qərarlaşması prosesində vətəndaş cəmiyyətinin normal mövcudluğu və fəaliyyəti, onun başlıca təsisatları, prinsipləri və dəyərləri üçün həlledici təminat yaradıb. Hüquqi dövlət vətəndaş cəmiyyəti ilə bir sıra ümumi və birləşdirici hüquqi əsasa malikdir ki, bu da mahiyyət etibarilə ümumbəşəri xarakter daşıyır.

Vətəndaş cəmiyyəti demokratik dövlətin ən əhəmiyyətli, vacib tərəfidir. Vətəndaş cəmiyyətinin inkişaf dərəcəsi demokratiyanın inkişaf səviyyəsini əks etdirir. Vətəndaş cəmiyyəti nə qədər çox inkişaf edərsə (öz üzvlərinin fəaliyyəti, təşəbbüskarlığı mənasında) dövlətin demokratikliyi üçün bir o qədər geniş imkanlar yaranır. Vətəndaş cəmiyyəti bəşər sivilizasiyasının müasir səviyyəsində

---

[1] Козырев Т.И. Политическая конфликтология. М., 2008, .с 212.

fərdlər, qruplar və birliklər arasında dövlət vasitəsilə şərtlənməyən inkişaf etmiş iqtisadi, mədəni, hüquqi, siyasi münasibətlərdir[1].

**İkinci fəslin** üçüncü yarımfəsli «**Vətəndaş cəmiyyətinin inkişafı dövlətlə qarşılıqlı fəaliyyəti kontekstində**» adlanır. Dövlətlə vətəndaş cəmiyyətini bir-birinə qarşı qoymaq olmaz. İctimai həyatın bu iki fenomeni bir-birini qarşılıqlı surətdə tamamlayır və sıx qarşılıqlı fəaliyyətləri ilə səciyyələnirlər. Sosial məkanda dövlətin və ya vətəndaş cəmiyyətinin hansı çəkiyə malik olması onların mənsub olduğu demokratik, avtoritar və ya totalitar tipli sosial sistemlərlə bağlıdır.

Dövlət və vətəndaş cəmiyyətinin qarşılıqlı fəaliyyəti sonuncunun təzahürü ilə təşəkkül tapır. Cəmiyyətin bu iki təsisatının bir-birinə münasibətdə hansının üstünlük təşkil etməsi məsələsi həmişə mübahisələrə səbəb olmuşdur. Vətəndaş cəmiyyəti sferasının ayrılığının başlıca meyarı özünüidarə və özünü təşkilin başlanğıcında inkişaf edən insanların qarşılıqlı sosial münasibətlərinin müəyyən sahəsinin dövlətdən «ayrılmasıdır»[2].

Müasir dövrdə dövlətin sosial funksiyalarının əhatə dairəsi genişləndikcə, onun vətəndaş cəmiyyəti ilə əməkdaşlığı da nisbətən yeni çalarlar kəsb edir.

Dövlət və vətəndaş cəmiyyətinin qarşılıqlı fəaliyyəti cəmiyyətin siyasi sisteminin bu fəaliyyət istiqamətində yeniləşməsindən əhəmiyyətli dərəcədə asılıdır. Vətəndaş cəmiyyəti ilə dövlətin qarşılıqlı fəaliyyətinə dair mülahizələri ümumiləşdirərək bir sıra əhəmiyyətli nəticələrə gəlmək olar:

1. Vətəndaş cəmiyyəti mütləq hökmranlıq üçün siyasi hakimiyyətə cəhd edən «qarşıdurma» sistemində ən mühüm və qüdrətli vasitələrdən biridir. Bu missiyanı yerinə yetirmək üçün o, xeyli vasitələrə malikdir.

2. Vətəndaş cəmiyyətinin xeyli təşkilatları və birlikləri dövlət tərəfindən müdafiə olunmağa ehtiyac duyur. Dövlətdən asılı olmayan, öz-özünə yaranan və özünü tənzimləyən vətəndaş cəmiyyəti təşkilatları dövlətlə müxtəlif formalarda qarşılıqlı fəaliyyət

---

[1] Кравченко И.И. Концепции гражданского общества в философском развитии. «Политическое образование», 1991, №5, с. 136.

[2] Ростиашвили К.Д. Государственное регулирование в либеральной демократической системе // «Политическое исследование», 1996, №6, с. 71.

göstərirlər.

3. Öz növbəsində dövlət də vətəndaş cəmiyyəti ilə qarşılıqlı fəaliyyətə yüksək dərəcədə maraqlıdır. Bu, bir sıra səbəblərlə şərtlənir:

- hakimiyyətdə olan siyasi qüvvələrin legitimliyinin mənbəyi məhz vətəndaş cəmiyyətidir,
- vətəndaş cəmiyyəti təşkilatları ilə əlaqə cəmiyyətin vəziyyəti, onun mənafeyi, əhval-ruhiyyəsi, siyasi hakimiyyətə münasibət haqqında dövlət üçün geniş miqyaslı informasiya mənbəyidir;
- mürəkkəb tarixi mərhələlərdə (iqtisadi böhran, müharibələr və s.) vətəndaş cəmiyyəti bir qayda olaraq dövləti müdafiə edən qüdrətli qüvvəyə çevrilir;

Demokratik siyasi rejimdə dövlətlə vətəndaş cəmiyyətinin sıx qarşılıqlı fəaliyyəti siyasi və iqtisadi sabitliyin əsasını təşkil edir.

**İkinci fəslin «Azərbaycanın siyasi sisteminin demokratikləşməsi prosesində vətəndaş cəmiyyətinin formalaşması və inkişafı»** adlanan dördüncü yarımfəslində ölkəmizdə demokratikləşmə prosesinin mahiyyəti və xüsusiyyətləri araşdırılır, bu zəmində cəmiyyətimizdə vətəndaş cəmiyyətinin təşəkkülü, formalaşması və inkişafı açıqlanır. Azərbaycan cəmiyyətinin demokratikləşməsi ölkəmizdə vətəndaş cəmiyyətinin müvafiq təsisatlarının formalaşmasını, başqa sözlə, müxtəlif təbəqələri təşkil edən vətəndaşların siyasi proseslərdə iştirakını, onların öz maraqlarını həyata keçirməsini və eləcə də hakimiyyətin siyasi kursunun reallaşmasını təmin edə bilən ictimai-siyasi təşkilatların, müxtəlif assosiasiyaların yaradılmasını həyati zərurətə çevirir.

Azərbaycanda demokratik hüquqi dövlətin və vətəndaş cəmiyyətinin formalaşması prosesində vətəndaş cəmiyyətinin struktur elementlərindən biri kimi partiyalaşma, xüsusilə çoxpartiyalılığın təşəkkülü, cəmiyyətin siyasi sistemində onların yeri və rolu, partiya sistemlərinin formalaşması və eləcə də təsisatlaşması xüsusi əhəmiyyətə malikdir. Azərbaycanda sıralarında 600 mindən artıq insanı birləşdirən ən böyük və nüfuzlu partiya 1992-ci ilin noyabrında ictimai xadimlər qrupunun təşəbbüsü ilə yaradılan «Yeni Azərbaycan» partiyasıdır.

Azərbaycanda partiyalarla yanaşı, vətəndaş cəmiyyətinin digər elementi qeyri-hökumət təşkilatlarıdır. Qeyri-hökumət təşkilatları anlayışının məzmununa müstəqil assosiasiyalar, cəmiyyətlər,

təşkilatlar, hərəkatlar daxildir. Vətəndaş cəmiyyətinin təsisatlarının formalaşması və inkişafı vətəndaşların bütün münasibətlərdə fəal və yaradıcı fəaliyyətini həyati zərurətə çevirir.

Azərbaycanda qeyri-hökumət təşkilatı kimi fəaliyyət göstərən və xüsusi əhəmiyyət kəsb edən təşkilat Azərbaycan Respublikasının Milli Məclisinin Deputatı, UNESCO və İSESKO-nun xoşməramlı səfiri, Azərbaycanın Birinci Xanımı Mehriban xanım Əliyevanın uğurla rəhbərlik etdiyi Heydər Əliyev Fondudur. Heydər Əliyev Fondu ardıcıl xeyriyyəçiliyi, dəyərli təşəbbüsləri, ölkəmizdə və bir sıra xarici ölkələrdə həyata keçirdiyi çoxsaylı tədbirləri ilə xalqımızın rəğbətini və böyük ictimai nüfuz qazanmışdır.

Azərbaycan cəmiyyətində yaranan və dəyərli fəaliyyəti ilə səciyyələnən digər qeyri-hökumət təşkilatı "Simurq" Azərbaycan Mədəniyyət Assosiasiyasıdır. "Simurq" AMA, mədəniyyət sahəsində Azərbaycanın ilk qeyri-hökumət təşkilatıdır. Bu qeyri-hökumət təşkilatı faydalı fəaliyyəti ilə cəmiyyətin mənəvi həyatının təkmilləşməsinə səmərəli təsir göstərmişdir.

**Nəticədə:** Tədqiqata yekun vurulmuş, elm-analitik ümumiləşdirilmələr aparılmış, habelə problemin həlli ilə bağlı fikirlər, nəzəri və praktik xarakterli təklif və tövsiyələr irəli sürülmüşdür. Müəllif belə qənaətə gəlmişdir ki, qlobal demokratikləşmə prosesində demokratik siyasi rejimlərin yaranması və bu zəmində vətəndaş cəmiyyətinin formalaşması müasir cəmiyyətin inkaredilməz faktına çevrilmişdir. Tədqiqatın əsas nəticəsi ondan ibarətdir ki, demokratik siyasi rejim vətəndaş cəmiyyətinin formalaşması üçün zəruri siyasi, iqtisadi, hüquqi və mənəvi-ideoloji imkanlar yaradır, vətəndaş cəmiyyəti isə demokratik, hüquqi dövlətin mühüm tərəfi və əhəmiyyətli sahəsi kimi çıxış edir. Bu reallıq Azərbaycan Respublikasının nümunəsində aydın şəkildə təzahür olunur.

Dissertasiyanın əsas məzmunu müəllifin çap edilmiş aşağıdakı elmi işlərində əks olunmuşdur.

1. Demokratik siyasi rejimin sosial-siyasi dəyərləri // Tarix və onun problemləri. Nəzəri elmi metodik jurnal. Bakı, 2012, №2, s. 311-316.
2. Vətəndaş cəmiyyətinin mahiyyəti və məzmunu // Dirçəliş XXI əsr jurnalı. Azərbaycan Dövlət Quruculuğu və Beynəlxalq Münasibətlər İnstitutunun elmi nəşri. Bakı, 2012, №2, s. 421-427.
3. Vətəndaş mədəniyyəti // Azərbaycan Dövlət Mədəniyyət və

İncəsənət Universitetinin 90 illiyinə həsr edilmiş, «Qloballaşma şəraitində kulturoloji innovasiyalar və sosial-mədəni inkişaf» mövzusunda keçirilmiş beynəlxalq konfransın materialları. Bakı, 2012, s. 220-223.

4. Heydər Əliyev və Azərbaycan Respublikasında vətəndaş cəmiyyəti. «Heydər Əliyevin Dövlətçilik irsi və müstəqil Azərbaycanın inkişaf modeli» mövzusunda keçirilən elmi konfransın materialları (Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası). Bakı, 2012, s. 159-164.
5. Vətəndaş Cəmiyyətinin struktur-funksional dəyərləri // Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə. Elmi-nəzəri jurnal. Bakı, 2013, №1 (41), s. 203-209.
6. Vətəndaş Cəmiyyəti və dövlətin qarşılıqlı fəaliyyəti. // Tarix və onun problemləri. Nəzəri elmi metodik jurnal. Bakı, 2013, №1, s. 181-187.
7. Правовое государство и гражданское общество // Межкультурные коммуникации // Международное научно-периодическое издание. Тбилиси. Выпуск №21, 2013, с. 152-158.
8. Heydər Əliyev və demokratik hüquqi dövlət quruculuğu // Heydər Əliyev – 90. Ümummilli lider Heydər Əliyevin anadan olmasının 90 illik yubileyi ilə əlaqədar elmi-praktik konfransın materialları (Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası). Bakı, 2013, s. 188-193.

**Камиль Рзагулу оглы Сеидов**

# ДЕМОКРАТИЧЕСКИЙ ПОЛИТИЧЕСКИЙ РЕЖИМ И ГРАЖДАНСКОЕ ОБЩЕСТВО

## РЕЗЮМЕ

Диссертационная работа состоит из введения, двух глав, охватывающих семь параграфов, заключения и списка использованной литературы.

В первой главе исследуются социально-политические ценности и плюралистическая сущность демократического политического режима, содержание гражданского общества и концептуальные подходы к нему, особенности создания гражданского общества в демократическом политическом режиме.

Во второй главе раскрываются структура, функции и направления развития гражданского общества, роль демократического правового государства в формировании гражданского общества, особенности развития гражданского общества в конте к-сте взаимодействия с государством. Тесное взаимодействие государства и гражданского общества исследуется как фактор, который составляет основу политической и экономической стабильности, обуславливает динамическую стабильность социальной системы. Здесь также анализируются особенности формирования и развития гражданского общества в процессе демократизации политической системы Азербайджана, исследуются успехи достигнутые этой сфере.

В заключении на основе обобщающих выводов формулируются предложения и рекомендации, имеющие теоретическое и практическое значение. При этом автор приходит к выводу, что образование демократических политических режимов и формирование гражданского общества в процессе глобальной демократизации является неоспоримым фактом современного общества.

Политический режим создает необходимые политические, экономические, правовые и морально-идеологические возможности для формирования гражданского общества, а гражданское общество выступает важной стороной и значимой сферой демократического правового государства. Эта реальность ярко проявляется на примере Азербайджанской Республики.

**Kamil Rzaqulu Seyidov**

## DEMOCRATIC POLITICAL REGIME AND CIVIL SOCIETY


### SUMMARY

The thesis consists of introduction, two chapters involving seven paragraphs, result and references.

Timeliness of the topic is substantiated in the introduction, aim and duties of the research are determined, scientific innovation, theoretical and methodological and basis for source studies as well as theoretical and practical importance is mentioned and study level of the problem is paid attention.

In the first chapter, sociopolitical values and pluralist importance of democratic political regime, content and conceptual approaches of civil society, formation features of civil society in democratic political regime are studied.

In the second chapter, structure, functions and development directions of civil society, role of democratic legal state in formation of civil society, development features of civil society in the context of interaction with a state is paid attention. Close interaction of a state and civil society in a democratic political regime is analyzed as a factor of the basis for political and economic stability as well as defining dvnamic stability of oolitical system. At the same time, formation and development features of civil society in the democratization process of Azerbaijan is analyzed, successes, difficulties and controversies are studied.

Consequently the research ended, conducted scientific-analytical aggregations, as well as offered proposals and advices with practical and theoretical nature and ideas related to solution of problem. Taking into consideration of conducted results upon each paragraph it will be appropriate to mention the following principal moments: establishing democratic and political regimes in global democratization process and for the purpose of this formation of civil society has become an undeniable fact of our life. The main result of research consists of that the democratic political regime has created necessary political, economical, legal and moral-ideological opportunities for formation of civil society and characterizing of civil society as necessary part and important sphere of democratic legal government, it acts as source of laws of democratic society. This reality arrests more clearly attention in case of Azerbaijan Republic.

**АКАДЕМИЯ ГОСУДАРСТВЕННОГО УПРАВЛЕНИЯ
ПРИ ПРЕЗИДЕНТЕ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**

***На правах рукописи***

**КАМИЛЬ РЗАГУЛУ оглы СЕИДОВ**

# ДЕМОКРАТИЧЕСКИЙ ПОЛИТИЧЕСКИЙ РЕЖИМ И ГРАЖДАНСКОЕ ОБЩЕСТВО

Специальность: 5904.01 – «Политические институты и системы»

# АВТОРЕФЕРАТ

диссертации на соискание ученой степени
доктора философии по политическим наукам

**БАКУ – 2016**